


# "Türkün dili, Türkün səsi" - Sözlə səsin qardaşlıq nəğməsi

*Zəfər bayramı! Doğma vətənimizdə təntənə ilə qeyd edirik 8 noyabrı! Zəfərimizlə başa çatan 44 günlük müharibədə bu zəfəri bizə yaşadan şanlı ordumuzun qəhrəman əsgərlərinə, qazilərimizə və mübarək şəhidlərimizin ruhuna minnətdarıq hamımız. Xalqımızın, vətənimizin ən ağır günlərində həmişə bütün varlığı ilə onun yanında olan qardaş Türkiyədə də bizimlə birgə bu gün qələbəmizin bir ilini, şənliklər, konsert proqramları keçirərək bayram edirlər. Mənim indi haqqında söz açmaq istədiyim konsert proqramının ideyası isə təkcə Qarabağ müharibəsinin qələbə ilə başa çatmasından, şanlı zəfərimizdən deyil, bütövlükdə iki qardaş xalqın əzəli, əbədi birliyindən qaynaqlanıb.*

Bizi laylalarıyla qarşılayıb ağılarıyla yola salan dünyamızda, əslində, hər birimiz musiqiylə nəfəs alırıq... Qəlbimizin döyüntüsü, nəfəsimizin ahəngi var musiqimizdə!.. Zəfərimizi nəğmələrlə, mahnılarla bəzəyirik. Sevincimizi, zəfər qürurumuzu bütün dünyaya nəğmələrin dili ilə də bəyan edirik. Azad olunan, rahat nəfəs almağa başlayan Vətən torpağımız da "oxumağa" başlayıb artıq. İllər öncə, Şuşamızı itirərkən:

**Güllələnən otun, gülün,**
**De, qaldımı odu, külü?**
**Bitdimi xarıbülbülü**
**O qan izində, İlahi?! –**

deyə ürək yanğısıyla yazdığım "Şuşaya ağı" şeirimdəki xarıbülbül bu gün artıq müqəddəs şəhidliyin rəmzinə çevrilib, Şuşa torpağında Zəfər günümüzü bayram edən vətən övladlarının yaxasında "bitib"... İgidliyi və ecazkar səsi ilə "dastana dönən" şəhid vətən oğlunun - Xudayarın nəğməsini unutmaq olarmı? Bu gün artıq "Oxuyur Vətən" (Az TV) adı ilə azad edilmiş torpaqlarımızda, düşmən tapdağından qurtulmuş dağların ətəyində, qayaların üstündə, tarixi körpülərimizin üzərində, viran qalmış, uçuq evlərin eyvanında canlı olaraq səsləndirilir muğamlarımız – yaralı torpağımızın ruhunu oxşamaq, məlhəm çəkib sağaltmaq, canlandırmaq üçün... Ruhumuzu oxşayan nəğmələr olmadan həyat olardımı, görəsən? Doğma dilimizi, sözümüzü, nəğmələrimizi, türkülərimizi yaşadaq ki, yaşamaq da, həyat da gözəlləşsin gözümüzdə... Və ən əsası, dilimiz, səsimiz var olduqca varıq biz!

Artıq yola saldığımız oktyabr ayı Azərbaycanda, Türkiyədə və bütövlükdə Türk dünyasında əlamətdar günləri (3 oktyabr – Türklük Günü, Müstəqillik Günümüz -18 Oktyabr, qardaş Türkiyə Cümhuriyyətinin yaranma günü - 29 Oktyabr) ilə yaddaqalandır. Ötən il zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində doğma torpaqlarımızın kənd-kənd, şəhər-şəhər azad olunmasını qürurla




qeyd etdiyimiz günlərlə də əlamətdardır oktyabr ayı. Bu ilin oktyabr ayı daha bir tarixi ilə də əlamətdar oldu mənimçün. Yalnız mənimçün deyil, şeirlərinə mahnı bəstələnmiş daha 20 Azərbaycanlı müəllif üçün də əlamətdardı o gün. Əslində, Türkiyə - Azərbaycan ədəbi-mədəni əlaqələri və qardaşlıq münasibətlərimizin inkişafında özünəməxsus rolu ilə əlamətdardı həmin tarix. 4 oktyabr tarixində qardaş Türkiyənin paytaxtı Ankarada keçirilən konsert proqramında iştirak etmək imkanım olmasa da, könlüm, ruhum Sözün və Səsin qanadlarında pərvazlanıb o mahnıları dinləyirdi o gün...

Türk Musiqisi Federasiyasının (TÜMFED), Sözlə Səsin vəhdətindən yaranan "Türkün dili – Türkün səsi" layihəsi çərçivəsində Azərbaycan şairlərinin şeirlərinə bəstələnən mahnılar 4 oktyabrda Türkiyə Cümhuriyyətinin paytaxtı Ankarada səsləndirildi. Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi və TÜMFED-in birgə əməkdaşlığı ilə keçirilən bu möhtəşəm konsert proqramı, artıq dillər əzbəri olan "Bir millət – iki dövlət" deyiminin həqiqətini mahnıların "dili" ilə özündə əks etdirdi. "Türkün dili – Türkün səsi" layihəsinin ideya müəllifi, "fikir babası" Ərdoğan Tozoğludur. Türk dünyasına böyük sevgisi ilə seçilən bəstəkar Ərdoğan Tozoğlu Türkiyədə və Azərbaycanda sevilən çoxsaylı mahnıların, ilahilərin müəllifidir. Bu günədək Azərbaycan şairlərinin sözlərinə 300-dən artıq mahnı bəstələdiyini söyləyən bu istedadlı qardaşımız həm də Ankara Neoklassik Türk Musiqisi Mədəniyyət və Sənət Dərnəyi rəhbəridir.

Konsertdən öncə layihənin tanıdılması məqsədilə keçirilən mətbuat konfransında TÜMFED rəhbəri Kadri Şarman, hər şeydən öncə, bu layihənin ideya müəllifinin, onun sözləri ilə ifadə etsək, "fikir babası"nın Ərdoğan Tozoğlu olduğunu xüsusi qeyd edərək ona və bütün layihə iştirakçılarına, bəstəkarlara və şairlərə təşəkkürünü bildirib. Konsert proqramında türkiyəli bəstəkarların ( Kadri Şarman, Ərdoğan Tozoğlu, Faruk Ömer Öskan, Ziya Levent Topçu, Ahmet Ərdursun, Hülya Gökçə, Şakir Küçükkömürçü, Halil Altınköprü, Samiya Berkmen, Fatin Bereketoğlu, Yıldırım Aktaş, Hüseyn Taşçeşmə, Murat Şahintürk, Yıldırım Gurses) azərbaycanlı müəlliflərin ( Eldar İsmayıl Böyüktürk, Elmira Aslanxanlı Turan, Afina Əflatun, Şəlalə Ana, Şəhla Bayramova, Zaur Bəhramoğlu, Hüseyn Sözlü, Zeynəb Naxçıvanlı, Yardım Günəş, Nazlı Hacılı, Zöhrə Qaraqızı, Xalidə Nuray, Etibar Vəliyev, Vaqif Məmmədov, İman Namazov, Rüxsarə Adilqızı, Gülnarə Əsgərzadə, İltimas İsmayılova, Halil Soyuer) şeirlərinə bəstələdiyi mahnılar səsləndirilib. Ankara Dövlət Klassik Türk Musiqisi Xorunun və solistlərin ( Kadri Şarman, Nəşə Dursun, Nilgün Kabacı, Burçak Aygan, Fiğən Akışık, Levent Eyduran, Əmrə Aygan, Ərtoğrul Sevindik, Mutlu Benlioğlu, Harika Oktay, Tolga Özkabakçı, Ayşin Ökmən Ateş, Yalçın Yaman, Suat Kılıç, Gülsər Giraz, Recai Nurikadıoğlu) gözəl ifasında təqdim edilən mahnıların hər biri, eləcə də neyzən Tevfik Bilenin ecazkar ifası konsert iştirakçıları tərəfindən maraqla qarşılanıb. Konsertin sonunda səhnəyə dəvət edilən layihə iştirakçılarına plaketlər




təqdim edilib. Konsertdə iştirak etmək imkanım olmasa da, müxtəlif internet saytlarında haqqında yazılan xəbərlər, xoş təəssüratlar, konsertdən çəkilmiş kadrlar, videolentlərlə tanışlığım "Türkün dili, Türkün səsi" adlı bu möhtəşəm layihənin uğurlu gələcəyinə ümid bəsləməyimə əsas verir. Qeyd edim ki, ilk konserti Türkiyənin paytaxtı Ankarada həyata keçirilən layihənin ikinci konsertinin Azərbaycanda, Bakıda keçirilməsi planlaşdırılıb. Ümumiyyətlə, bütün Türk dünyasının mənəvi birliyinə, mədəniyyət körpüləri yaratmağa hədəflənmiş bu möhtəşəm layihəyə əsasən, türkiyəli bəstəkarlar tərəfindən daha sonra digər türkdilli (qazax, qırğız, qaqauz və b.) xalqların nümayəndəsi olan müəlliflərin şeirlərinə də mahnılar bəstələnməsi nəzərdə tutulub.

*Türk Musiqisi Federasiyasının , Sözlə Səsin vəhdətindən yaranan "Türkün dili – Türkün səsi" layihəsi çərçivəsində Azərbaycan şairlərinin şeirlərinə bəstələnən mahnılar 4 oktyabrda Türkiyə Cümhuriyyətinin paytaxtı Ankarada səsləndirildi. Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi və TÜMFED-in birgə əməkdaşlığı ilə keçirilən bu möhtəşəm konsert proqramı, artıq dillər əzbəri olan "Bir millət – iki dövlət" deyiminin həqiqətini mahnıların "dili" ilə özündə əks etdirdi. "Türkün dili – Türkün səsi" layihəsinin ideya müəllifi, "fikir babası" Ərdoğan Tozoğludur. Türk dünyasına böyük sevgisi ilə seçilən bəstəkar Ərdoğan Tozoğlu Türkiyədə və Azərbaycanda sevilən çoxsaylı mahnıların, ilahilərin müəllifidir.*

2015-ci ildən fəaliyyət göstərən TÜMFED-in həyata keçirdiyi, bu ilin fevral ayından start götürən bu layihə üçün Azərbaycan müəlliflərinin təqdim etdiyi 800-dən artıq şeirdən 30-na musiqi bəstələnib. Çox şadam ki, seçilən şeirlərdən biri də mənim illər öncə Yunus Əmrənin:

**'Dərviş gönülsüz gerek,**
**Sen derviş olamazsın", -**

misralarına cavab olaraq qələmə aldığım "Dərvişəm, Dərviş Yunusum" şeiridir.

**Söylədiyi sözə qurban -**
**Qılınc idim, çəkdi qından!**
**O mürşidi Dost bağından**
**Dərmişəm, Dərviş Yunusum,**
**Dərvişəm, Dərviş Yunusum!**

İllərdir, çox sevdiyim Yunus Əmrəyə ünvanladığım və könlümdə, dilimdə bir dua kimi təkrar-təkrar səslənən bu şeiri gözəl bir nəğməyə - ilahiyə çevirən isə bəstəkar Ərdoğan Tozoğludur. Bəstəkar Ərdoğan Tozoğlunu tanımağımda dəyərli alim, istedadlı qələm sahibi və bu layihədə "Yağış olub yağaydım" şeiri ilə iştirak edən dos.dr. Afina (Əflatun) Barmanbaya minnətdaram. Məni bir şeirimlə ("Xocalı harayı" şeirimlə) tanıyıb sözümü, özümü yüksək dəyərləndirən Afina xanımın məsləhəti ilə bir neçə şeirimi 2021-ci il yanvarında bəstəkar Ərdoğan Tozoğluna göndərmişdim. Bir neçə gün sonra Ərdoğan bəy məni "Şanlıurfa" şeirimin bəstəsi ilə sevindirdi. Bu, mənim şeirimə bəstələnən ilk mahnı idi.

*TÜMFED-in 'Türkün dili, Türkün səsi" layihəsi barədə eşidəndə adını və məramını çox bəyəndiyim bu layihədə mən də iştirak etmək üçün şeirlərimdən göndərdim. Ərdoğan Tozoğlunun 'Dərvişəm, Dərviş Yunusum" şeirimə bəstələdiyi ilahi eyni zamanda, Türkiyədə elan edilən 'Yunus Əmrə və Türkcə İli'hə də kiçik bir ərməğanımız oldu.*

*Türklük sevgisi, Vətən məhəbbəti, İlahi eşq, dostluq, sevgi kimi nəcib insani hissləri, ülvi, müqəddəs duyğuları tərənnüm edən mahnıların səsləndirildiyi bu konsert proqramı iki qardaş xalqın, 'bir millət – iki dövlət'in tarixi, mədəni, ədəbi və əbədi birliyinin ifadəsi, Türkiyə və Azərbaycan qardaşlığının zəfəridir. 'Türkün dili, Türkün səsi" layihəsi çərçivəsində keçirilən ilk konsert, bütövlükdə doğma dilimizin gözəlliyini və ruhumuzun böyüklüyünü bir nəğmədə birləşdirən Sözün və Səsin Vəhdəti,* qardaşlıq nəğməsi, zəfər bayramıdır!



**Dos. dr.**
**Şəlalə Ana Hümmətli**